# Dövlət Gömrük Komitəsində İtaliya nümayəndə heyəti ilə görüş keçirilib



**Yanvarın 14-də Dövlət Gömrük Komitəsində İtaliya Respublikasının Gömrük və İnhisarçılıq Agentliyinin Beynəlxalq Əlaqələr Ofisinin rəhbəri Andrea Mazzellanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Görüş zamanı Azərbaycan və İtaliya gömrük orqanları arasında mövcud əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda risklərin idarə olunması, gömrük hüquqpozmalarına qarşı mübarizə, süni intellektin tətbiqi ilə həyata keçirilən gömrük prosedurları, elektron ticarət sahəsində iki ölkənin gömrük orqanlarının qarşılıqlı təcrübə mübadiləsi imkanları müzakirə edilib.



Sonda İtaliya Respublikasının Gömrük və İnhisarçılıq Agentliyinin Beynəlxalq Əlaqələr Ofisi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Beynəlxalq Əməkdaşlıq İdarəsi arasında Niyyət Bəyanatı imzalanıb.

Azərbaycan.- 2026.- 15 yanvar (№8).- S.2.